Non official translation / Qeyri-rəsmi tərcümə

# HƏBSDƏ SAXLANMA ŞƏRAİTİ



AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİNİN QƏRARLARININ İCRASI DEPARTAMENTİ

DG1

## TEMATİK BÜLLETEN

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Tematik bülleten

**Non official translation / Qeyri-rəsmi tərcümə**

**İyun 2021**

# HƏBSDƏ SAXLANMA ŞƏRAİTİ

Bu xülasələrin hazırlanmasına yalnız Avropa Məhkəməsinin Qərarlarının İcrası Departamenti cavabdehdir və onlara görə Nazirlər Komitəsi heç bir şəkildə cavabdehlik daşımır.

***1. HƏBSDƏ SAXLANMANIN MADDİ ŞƏRAİTİ ... 3***
1.1. Məhbusların yerləşdirilməsi – sıxlığın aradan qaldırılması ... 3
1.2. Gigiyena şəraiti daxil olmaqla digər əsas maddi şərtlər ... 6
1.3. Xüsusi yüksək təhlükəsizlik, ehtiyat və intizam tədbirləri ... 7
***2. MƏHBUSLARIN FİZİKİ VƏ ƏQLİ SAĞLAMLIĞININ QORUNMASI, PSİXOLOJİ-SOSİAL DƏSTƏK GÖSTƏRİLMƏSİ VƏ SOSİAL REİNTEQRASİYAYA HAZIRLANMASI ... 9***
2.1 Məhbusların fiziki və əqli sağlamlığının qorunması ... 9
2.2 Psixoloji-sosial dəstək və sosial reinteqrasiyaya hazırlıq ... 12
***3. QABAQLAYICI HƏBS VƏ POLİS TƏCRİDXANALARINDA SAXLANMA ... 14***
***4. MƏHBUSLARIN HƏBSXANA ƏMƏKDAŞLARI VƏ YA DİGƏR MƏHBUSLAR TƏRƏFİNDƏN TÖRƏDİLƏN PİS RƏFTARDAN MÜDAFİƏSİ VƏ BELƏ RƏFTARIN QARŞISININ ALINMASI ... 15***
***5. MİLLİ TƏFTİŞ, MONİTORİNQ VƏ ŞİKAYƏT SİSTEMLƏRİ – SƏMƏRƏLİ HÜQUQİ MÜDAFİƏ VASİTƏLƏRİ ... 16***
5.1 Milli təftiş, monitorinq və şikayət sistemləri ... 16
5.2 Səmərəli (qabaqlayıcı və kompensasiyaedici) hüquqi müdafiə vasitələri ... 17
***İŞLƏRİN SİYAHISI ... 20***

İnsan hüquqları haqqında Avropa Konvensiyasının 3-cü maddəsi dövlətlərim üzərinə məhbusların insan ləyaqətinə hörmət edilən şəraitdə saxlanmasını, saxlama tədbirinin icra tərzi və metodunun onları həbsdə saxlanılmaya xas olan qaçılmaz iztirab səviyyəsini aşan sıxıntı və ya məhrumiyyətlərə məruz qoymamasını təmin etmək və həbsdə saxlanmanın praktik tələbləri nəzərə alınmaqla, məhbusların sağlamlıq və rifahını adekvat şəkildə təmin etmək öhdəliyi qoyur.

Həmçinin "Avropa penitensiar qaydaları"nın əsas prinsiplərinə uyğun olaraq, azadlıqdan məhrum edilmiş şəxslər ittiham hökmü hökm və ya həbs qərarı ilə qanuni olaraq məhrum edilmədikləri bütün hüquqlarını saxlayırlar. Bundan əlavə, məhbusların insan hüquqlarını pozan həbsxana şəraitinə resurs çatışmazlığı ilə haqq qazandırıla bilməz, eyni zamanda bütün həbsdə saxlama tədbirləri azadlıqdan məhrum edilmiş şəxslərin azad cəmiyyətə reinteqrasiyasını asanlaşdıracaq şəkildə tənzimlənməlidir.[1]

Hazırkı bülletendə Avropa Konvensiyasının 3-cü maddəsinə uyğun olaraq məhbuslara qarşı işgəncə və digər pis rəftar formalarının qarşısının alınması və aradan qaldırılması məqsədilə Avropa Məhkəməsinin qərarlarının icrası kontekstində dövlətlər tərəfindən görülmüş və barəsində məlumat verilmiş tədbirlərin nümunələri təqdim edilir. Burada aşağıdakı məsələlərə diqqət yetirilir: həbsdə saxlanmanın maddi şəraiti; məhbusların fiziki və psixi sağlamlığının qorunması, psixoloji-sosial dəstək və sosial reinteqrasiyaya hazırlıq; qabaqlayıcı həbs və polis təcridxanalarında saxlanma; həbsdə saxlanılan şəxslərin cəzaçəkmə müəssisəsinin əməkdaşları və məhkumlar tərəfindən pis rəftardan müdafiəsi və belə rəftarın qarşısının alınması; milli təftiş, monitorinq və şikayət sistemləri – səmərəli hüquqi müdafiə vasitələri.

*Azərbaycan dilinə qeyri-rəsmi tərcümə ingilis dilindəki orijinal mətnin əsasında icra olunmuşdur. Bu tərcümə Avropa Şurasının Avropa İnsan Hüquqları Məhkəməsinin Qərarlarının İcrası Departamenti (QİD) ilə razılaşma əsasında, lakin yalnız tərcüməçinin(lərin) məsuliyyət daşıması ilə və QİD-in öhdəlik daşımaması ilə dərc olunur. Mətnin tərcüməsi Avropa Şurasının "Avropa Məhkəməsi qərarlarının Azərbaycan tərəfindən icrasının gücləndirilməsinə dəstək" layihəsi çərçivəsində həyata keçirilmişdir.*

[1] Bax: Nazirlər Komitəsinin üzv dövlətlərə "Avropa penitensiar qaydaları"na dair Rec(2006)2-rev saylı Tövsiyəsi, 1 iyul 2020-ci ildə yenidən baxılmış və dəyişikliklər edilmiş versiya.

# 1. HƏBSDƏ SAXLANMANIN MADDİ ŞƏRAİTİ

## 1.1. Məhbusların yerləşdirilməsi – sıxlığın aradan qaldırılması

2017-ci ilin yanvar ayında qanunvericilik islahatlarından sonra milli qanunvericilik hər məhbus üçün 4 $m^2$ yaşayış sahəsinin olmasını tələb edir. Həmçinin qanun qapalı cəzaçəkmə müəssisələrində həddindən artıq sıxlıqla mübarizə aparmaq üçün açıq tipli həbsxana yataqxanalarından daha geniş istifadəni nəzərdə tutur.

***BOL / Kehayov (41035/98)***

***Yekun qərar 18/04/2005***

**Fəaliyyət planı**

İcra vəziyyəti: icra başa çatmayıb

---

Bir sıra cəzaçəkmə müəssisələrində istilik sistemləri, təbii işıqlandırma imkanı və sanitar qovşaqlar yenilənib.

Bundan əlavə, "Probasiya haqqında" 2009-cu il tarixli Qanunla probasiya sistemi və ictimai işlər kimi alternativ tədbirlər tətbiq edilmişdir. Bundan başqa, Aİ-nin "Xorvatiya Respublikasının penitensiar sisteminə dəstək" layihəsi çərçivəsində məhbuslar üçün məqsədyönlü tədbirlərin, eləcə də idman tədbirlərinin təşkilinə başlanılıb.

***XOR / Cenbauer (73786/01)***

***Yekun qərar 13/09/2006***

**Yekun qətnamə CM/ResDH(2020)225**

---

2013-cü ildə Ədliyyə nazirinin təsdiqlədiyi "Həbsxanalarda daxili qaydalar haqqında Əsasnamə"yə dəyişiklik edildi və kamerada hər məhbusa ən azı 3 $m^2$ (əvvəlki 2,5 $m^2$ əvəzinə) yer ayrıldı. Yeni tikilmiş həbsxanalarda (Tartu həbsxanası və Viru həbsxanası) minimum 4 $m^2$ sahəyə təminat verilir.

2015-ci ildə "Azadlıqdan məhrum etmə haqqında" Qanuna edilmiş dəyişiklikdə məhbusların sayının Ədliyyə nazirinin hər bir cəzaçəkmə müəssisəsi üçün müəyyən etdiyi maksimum saydan çox olmaması nəzərdə tutulur. Məhkəmə təcrübəsinin nümunələri bu faktı təsdiq edir ki, yerli məhkəmələr həbsxanalarda və istintaq təcridxanalarında saxlanma şəraitinin pis olmasına görə faktiki olaraq kompensasiya təyin edirlər.

***EST / Tunis (429/12)***

***Yekun qərar 13/03/2014***

**Yekun qətnamə CM/ResDH(2016)22**

---

2015-ci ildə həbs yerlərində sıxlığın aradan qaldırılması ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün iki qanun qəbul edildi. Nəticədə cinayət işi üzrə məhkum edilənlərin bir aydan artıq müddətə polis bölmələrində saxlanmalarına son qoyuldu. Qabaqlayıcı həbs tədbirinə məruz qalan və yaxud məhkəmə araşdırmasına və ya ölkədən çıxarılma tədbirinə qədər həbsdə saxlanılan şəxslər müxtəlif polis bölmələrində dörd gündən artıq saxlanıla bilməz.

2019-cu ildə Cinayət Məcəlləsinə və Cinayət Prosessual Məcəlləsinə xırda hüquqpozmaların cinayət hesab edilməməsi, bəzi xırda hüquqpozmalara görə cəzaların icrasının dayandırılması, ictimai işlərin tətbiqi və təqsirin etiraf edilməsi üçün sövdələşməni nəzərdə tutan dəyişikliklər edildi. Həbsdə saxlamanın alternativlərinin tətbiqinə xüsusi diqqət yetirildi.

Bundan əlavə, 2005-2017-ci illər arasında həddən artıq sıxlıq olan həbsxanalarda, o cümlədən karserlərdə pis saxlanma şəraitini aradam qaldırmaq üçün yeni həbs yerləri (Niqrita, Dram, Krit, Aspropirqos, İoannina və Halkida) planlaşdırıldı və ya inşa edildi. Bundan başqa, bütün cəzaçəkmə müəssisələrində mütəmadi olaraq təmir/yenidənqurma işləri aparılırdı. 2021-2023-cü illər üçün yenilənmiş "Strateji plan" hazırlandı.

***YUN / Siasios və başqaları (30303/07)***

***Yekun qərar 04/09/2009***

**Yekun qətnamə CM/ResDH(2018)224**

***YUN / Nisiotis (34704/08)***

***Yekun qərar 20/06/2011***

**Fəaliyyət planı**

İcra vəziyyəti: icra başa çatmayıb

---

Həddindən artıq sıxlıq problemi üç fəaliyyət istiqaməti üzrə həll edildi:

- Bir sıra xırda hüquqpozmalara görə məcburi qaydada azadlıqdan məhrum etmə cəzasının aradan qaldırılması yolu ilə azadlıqdan məhrum etmə cəzasına alternativlərin tətbiqinin artırılmasına, beləliklə də, xırda hüquqpozmalara görə qabaqlayıcı həbs tədbirinin tətbiqinin məhdudlaşdırılmasına yönəlmiş qanunvericilik tədbirləri; və müəyyən hallarda məhbusların nəzarət altında vaxtından əvvəl azadlığa buraxılması imkanlarının artırılması;
- Məhbusların kameralardan kənarda hərəkət azadlığının artırılması yolu ilə həyat şəraitinin yaxşılaşdırılmasına yönəlmiş təşkilati tədbirlər;
- Həbsxanaların təmiri.

Xüsusilə 2013-cü ildə qanunvericilik aktı ilə vaxtından əvvəl azadlığa buraxılma qərarlarının, elektron qurğuların istifadəsinin, habelə ev dustaqlığı tədbirlərinin sayı artırıldı və narkotiklərlə bağlı xırda hüquqpozmalara görə daha yüngül cəzalar tətbiq edildi.

***İTA / Torregiani və başqaları (43517/09)***

*Yekun pilot qərar 27/05/2013*

Yekun qətnamə CM/ResDH(2016)28

---

2015-ci ildə "Cəzaların icrası haqqında" Qanuna dəyişiklik qəbul edildi, dəyişiklikdə nəzərdə tutulurdu ki, bir məhbusun yaşayış sahəsi bir neçə nəfərlik kamerada 4 $m^2$-dən, bir nəfərlik kamerada isə 9 $m^2$-dən az olmamalıdır.

***LAT / Abele (60429/12)***

*Yekun qərar 29/01/2018*

Yekun qətnamə CM/ResDH(2018)433

---

2005-ci ildə "Həbsə alınmış şəxslərin saxlanması haqqında" Qanunla 4 $m^2$ (bir nəfərlik kameralarda) və 15 $m^2$ (5 nəfərlik kameralarda) minimum yaşayış sahəsi, məhbusların təbii və süni işıqlandırmaya çıxışı təmin edildi və mebel avadanlığı, havalandırma və istiliklə bağlı minimum standartlar tətbiq edildi. Qanun kameradan kənar fəaliyyətləri tənzimləyirdi.

2006-cı ildə hökumət "Qısa müddətə saxlanma yerlərində saxlanılan şəxslər üçün qidalanmanın, yuyucu vasitələrin və şəxsi gigiyena vasitələrinin maddi normaları haqqında" Qərar qəbul etdi.

Konstitusiya Məhkəməsinin 2011-ci il tarixli qərarından sonra məhbusların şəxsi həyatının məxfiliyinin qorunmasını təmin edəcək şəkildə tualet qurğularının arakəsmə ilə ayrılmasını təmin etmək üçün qanuna dəyişiklik edildi. 2012-ci ilədək adekvat şəraiti olmayan qısamüddətli saxlanma yerləri təmir olundu.

***LAT / Kadikis (№ 2) (62393/00)***

*Yekun qərar 04/08/2006*

Yekun qətnamə CM/ResDH(2016)122

---

Həbsxanada saxlanılanların sayını azaltmaq üçün 2016-cı ildə hökumət sistematik yanaşma qəbul etdi, bu yanaşma ilk addım kimi həbsxanada yerləşdirilmə imkanlarının ümumi qiymətləndirilməsini də əhatə edirdi. Qabaqlayıcı həbslə bağlı məsələlərin, xüsusilə onun tətbiqinin azaldılması yollarının araşdırılması üçün işçi qrupu yaradıldı. "2016-2020-ci illər üçün penitensiar sistemin inkişafına dair Strategiya" hökumət tərəfindən təsdiq edildi. Bu Strategiya penitensiar sistemin SWOT təhlilini (güclü və zəif cəhətlərin, imkanların və təhlükələrin təhlili), aradan qaldırılmalı olan problemləri və bu baxımdan görüləcək tədbirləri əhatə edirdi.

***MOL / Ciorap(12066/02)***

*Yekun qərar 19/09/2007*

Yekun qətnamə CM/ResDH(2018)107

---

2015-ci ildə Podqoritsadakı istintaq təcridxanasında təmirin vəziyyətinin və saxlanma şəraitinin İşgəncələrin qarşısının alınması üzrə Komitənin (CPT) standartlarına uyğunlaşdırılması üçün tədbirlər görüldü.

Bundan başqa, 2015-ci ildə Cinayət Prosessual Məcəlləsinə xırda hüquqpozmalara görə alternativ sanksiyaların (girov müqabilində azad edilmə, dövlət orqanına mütəmadi məlumat vermək öhdəliyi daşımaqla şərti azad edilmə, səyahət sənədlərinin götürülməsi və s.) tətbiqinin mümkünlüyünü nəzərdə tutan dəyişikliklər edildi. 2017-ci ildə Podqoritsadakı istintaq təcridxanasının tutumu 350 məhbus olduğu halda orada 61 məhbus vardı.

***MON / Bulatovic (67320/10)***

*Yekun qərar 22/10/2014*

Yekun qətnamə CM/ResDH(2017)35

Həddən artıq sıxlıq problemini həll etmək üçün 2006-2010-cu illər ərzində cəzaçəkmə müəssisələrində 15.249 yeni yaşayış vahidi yaradılmışdır.

2009-cu ildə Konstitusiya Məhkəməsinin qərarından sonra Cinayət Cəzalarının İcrası Məcəlləsinə dəyişiklik edildi, dəyişikliyə əsasən, şəxsi sahəsi qanunla müəyyən edilmiş 3 m²-dən az olan kamerada məhbusların yerləşdirilməsi yalnız müstəsna hallarda baş verə və müəyyən müddətlə məhdudlaşdırıla bilər. Həddən artıq sıxlıq olan cəzaçəkmə müəssisələrində və istintaq təcridxanalarında məhbuslar daha uzun müddət ərzində və ya əlavə gəzinti hüququna malikdirlər və daha uzun müddət ərzində və ya əlavə mədəni, maarifləndirici və idman tədbirlərində iştirak edə bilərlər.

2009-cu ildə "Cəzaçəkmə müəssisələrindən kənarda cəza çəkən şəxslərə elektron nəzarət haqqında" Qanunda qısamüddətli cəzaların cəzaçəkmə müəssisələrindən kənarda çəkilməsi imkanları nəzərdə tutulmuşdur; 2015-ci ildə onun müddəaları Cinayət Məcəlləsinə və Cinayət Cəzalarının İcrası Məcəlləsinə daxil edilmişdir. Bu sistem üzrə cəza çəkmək üçün verilən icazələrin cəmi 10%-i məhkəmə tərəfindən ləğv edilib ki, bunun da səbəbi məhkumların cəzaçəkmə şərtlərinə əməl etməməsi olmuşdur.

2015-ci ildə Cinayət Məcəlləsinə edilən dəyişikliklər vaxtından əvvəl şərti azadlığa buraxılmanın əlçatanlığını daha da yaxşılaşdırdı, hökm çıxarılana qədər həbssə saxlanma müddətini azaltdı və bəzi hüquqpozmaları (məsələn, sərxoş vəziyyətdə avtomobil idarə etmə) qismən dekriminallaşdırdı.

***POL / Orchowski (17885/04)***

***Yekun qərar 22/10/2010***

**Yekun qətnamə CM/ResDH(2016)254**

---

2014-cü ildə prokurorluq orqanlarında və cəza siyasətində aparılan dərin islahatdan sonra həbsxanaların sıxlıq səviyyəsi 2015-ci ilin yanvarında 164%-dən 2019-cu ilin dekabrında 113%-ə enmişdir ki, bu da, digər tədbirlərlə yanaşı, aşağıdakıların nəticəsində baş vermişdir:

- ağırlaşdırıcı və yüngülləşdirici hallar sisteminə yenidən baxılması yolu ilə cəzaların fərdiləşdirilməsi, habelə cəzaların icrasının dayandırılması, təxirə salınması və ya cəza çəkməkdən azad edilmə;
- ictimai sanksiyaların daha geniş istifadəsi;
- 2017-ci ildə tətbiq edilən cəzanın yüngülləşdirilməsindən ibarət kompensasiyaedici tədbirlərin tətbiqi;
- məhkəməyəqədər həbsin alternativlərindən istifadə.

İnfrastruktura gəlincə, 2016-cı ildə penitensiar sistemdə mövcud yerlərin transformasiyası yolu ilə 672 əlavə məskunlaşma yeri yaradılıb. 2017-ci ildə 170 yeni məskunlaşma yeri yaradılıb, daha 200 yer modernləşdirilib (Bacau penitensiar müəssisəsi). 2018-ci ildə hökumətin "2018-2024-cü illər üçün tədbirlər təqvimi" təsdiq edildikdən sonra 70 yeni saxlanma yeri (Curcu – 30 yer və Deva – 40 yer) yaradılıb və 282 yer modernləşdirilib (Deva penitensiar müəssisəsi).

***RUM / Bragadireanu (22088/04)***

***Yekun qərar 06/03/2008***

***RUM / Rezmives və başqaları (61467/12)***

***Yekun pilot qərar 25/07/2017***

**Fəaliyyət planı**

İcra vəziyyəti: icra başa çatmayıb

---

Lyublyana həbsxanasında qeyri-adekvat saxlanma şəraitini aradan qaldırmaq üçün hər məhbusa 4,5 m² yaşayış sahəsini təmin etmək məqsədilə tutumun artırılması, kameradan kənarda daha çox vaxt keçirilməsi və təklif olunan fəaliyyətlərin şaxələndirilməsi daxil olmaqla, hərtərəfli və çoxaspektli yanaşma tətbiq edilib. Bundan əlavə, 2017-ci il "Probasiya haqqında" Qanunla azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaların və şərti azad etmənin tətbiqini asanlaşdırmaq üçün xüsusi orqan yaradılıb. Bundan başqa, sıxlıq maksimum həddə çatdıqda digər həbsxanalara köçürmələrin avtomatik işə salınması üçün xüsusi prosedur tətbiq edilib.

***SVN / Jovic və Mandic (5774/10+)***

***Yekun qərar 20/01/2012***

**Yekun qətnamələr**
**CM/ResDH(2018)101**
**CM/ResDH(2020)102**

---

2018-ci ildə 135 cəzaçəkmə müəssisəsi əsaslı təmir edilib, həmçinin 183 istintaq təcridxanası əsaslı təmir edilib, üç islah müəssisəsi (ittiham hökmündən sonra icbari əmək üçün), o cümlədən islah müəssisəsi kimi fəaliyyət göstərən 27 obyekt tikilib, 1700-ə yaxın saxlanma yeri yaradılıb.

***RUS / Kalashnikov (47095/99)***

***Yekun qərar 15/10/2002***

---

2017-ci ildə azadlıqdan məhrum etmə cəzalarının tətbiqinin azaldılması məqsədilə Cinayət Məcəlləsinə cinayət cəzasının yeni növü kimi ictimai işlər daxil edilib. 2018-ci ildə qanunla qabaqlayıcı həbs qərarı əsasında həbsdə saxlama müddətinin hər gününün bir gün yarıma bərabər hesablanması ilə bağlı yeni xüsusi qaydalar tətbiq edilib. Bu qanun retrospektiv qaydada tətbiq edilib və 81.000-ə yaxın iş üzrə cəzaların azaldılmasına, 10.000-ə yaxın iş üzrə isə məhbusların azadlığa buraxılmasına səbəb olub. Ümumilikdə, 2018-ci ildə cəza çəkən məhbusların sayı 2017-ci illə müqayisədə 7%, 2013-cü illə müqayisədə isə 17,2% azalıb.

***RUS / Ananyev və başqaları (42525/07)***

***Yekun pilot qərar 10/04/2012***

**Fəaliyyət planı**

İcra vəziyyəti: icra başa çatmayıb

## 1.2. Gigiyena şəraiti daxil olmaqla digər əsas maddi şərtlər

“Penitensiar xidmətlərin təşkili haqqında” 2019-cu il tarixli Qanun əməkdaşların tətil aksiyası zamanı həbsxana nəzarətçilərinin vəzifələrinin davamlılığını təmin edən hüquqi baza yaratmaq üçün əməkdaşlar tətil etdikləri müddətdə məhbuslar üçün təmin ediləcək minimum əsas xidmətləri müəyyənləşdirir və əməkdaşların rekvizisiyası imkanını nəzərdə tutur. Hər bir həbsxana Ədliyyə nazirinin 2020-ci il tarixli sirkulyarında yer alan təlimatlara və nazirin göstərişlərinə uyğun olaraq müvafiq fəaliyyət planı qəbul etməlidir. Nəhayət, 2019-cu il tarixli kral fərmanı tətil elan edilməzdən əvvəl 30 günlük sosial məsləhətləşmə müddətini nəzərdə tutur.

***BEL / Clasens (26564/16)***

***Yekun qərar 28/08/2019***

**Fəaliyyət hesabatı**

İcra vəziyyəti: icra başa çatmayıb

2010-cu ildən etibarən doqquz cəzaçəkmə müəssisəsində və bir həbsxana xəstəxanasında təmir işləri, o cümlədən tualetlərdə arakəsmələrin tikintisi aparılıb. Bundan əlavə, həbsxanaların təhsil, fiziki və digər sosial fəaliyyətlər üçün təchizatı yaxşılaşdırılıb.

2006-cı ildə Nazirlər Kabinetinin “Azadlıqdan məhrum etmə yerlərinin daxili qaydaları”na əsasən, cəzaçəkmə müəssisəsinin müdiriyyəti məhkumların həftədə ən azı bir dəfə hamam və ya duş qəbulunu, yataq dəstinin və alt paltarının dəyişdirilməsini təmin etməyə borcludur.

***LAT / Bazjaks (71572/01)***

***Yekun qərar 19/01/2011***

***LAT / Melnitis (30779/05)***

***Yekun qərar 09/07/2012***

**Yekun qətnamə CM/ResDH(2016)122**

Ədliyyə nazirinin 2014-cü il tarixli əmri ilə cəzaçəkmə müəssisələrində və istintaq təcridxanalarında məhbusların məişət şəraiti üçün müəyyən edilən və saxlanılan şəxslərin kameralarının təmiz saxlanması üçün istifadə olunan geyim, alt paltarı, gigiyena vasitələri, təmizlik vasitələri və qab-qacağın zəruri miqdarı, eləcə də kameralarda və digər tikililərdə məhbusların yaşayışı və adekvat yaşayış şəraitinin təmin edilməsi üçün nəzərdə tutulmuş məişət avadanlıqlarına, habelə həbsxanalardakı və istintaq təcridxanalarındakı xəstəxanalarda, tibb məntəqələrində və həkim otaqlarında qalma şəraitinə tətbiq edilən standartlar müəyyən edilmişdir.

***POL / Orchowski (17885/04)***

***Yekun qərar 22/10/2010***

**Yekun qətnamə CM/ResDH(2016)254**

“Ölüm hökmünün icrasını gözləyən” məhbuslara münasibətdə təbii işıqsız və hər hansı fəaliyyətin və ya insanlarla təmasların faktiki qeyri-mümkün olduğu çox məhdud yaşayış sahəsində uzunmüddətli saxlanmanın tətbiq edildiyi rejimin dəyişdirilməsi məqsədilə 1998-ci ildə qəbul edilmiş “Ölüm cəzasına məhkum edilmiş şəxslərin saxlanma şəraiti haqqında daxili təlimat” həbsxana kameralarında pəncərələrin örtüklərinin çıxarılması, açıq havada gəzintiyə icazə verilməsi və bu məhbuslara ziyarətçiləri qəbul etmək və yazışmaq hüququ verilməsi ilə nəticələnmişdir. 1999-cu il tarixli yeni qaydalar məhbusların hüquqlarını, o cümlədən qohumları ilə yazışmaq və onlara baş çəkmək, həmçinin dua etmək, dini ədəbiyyat oxumaq və keşiş tərəfindən ziyarət edilmək hüququnu əhəmiyyətli dərəcədə genişləndirmişdir.

***UKR / Aliev (41220/98)***

***Yekun qərar 29/07/2003***

**Yekun qətnamə CM/ResDH(2017)198**

## 1.3. Xüsusi yüksək təhlükəsizlik, ehtiyat və intizam tədbirləri

2017-ci ilin yanvarında qanunvericilik islahatlarından sonra ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş hər bir şəxs barəsində xüsusi rejim ilkin olaraq məhkəmə tərəfindən müəyyən edilir, lakin xüsusi rejimin saxlanmasının məqsədəuyğunluğuna bir ildən sonra və ardınca (ən çoxu) bir illik fasilələrlə cəzaçəkmə müəssisəsinin rəhbəri tərəfindən yenidən baxılır. Həbsxana müdiri qərarının səbəblərini göstərməlidir və bu qərara məhkəmə tərəfindən yenidən baxıla bilər. Üstəlik, 2017-ci ilin yanvar ayından etibarən qanun tətbiq olunan cəzaçəkmə rejimindən asılı olmayaraq uzunmüddətli təcridlə bağlı inzibati məhkəmələrə şikayət vermək imkanını nəzərdə tutur.

***BOL / Kehayov (41035/98)***

***Yekun qərar 18/04/2005***

**Fəaliyyət planı**

İcra vəziyyəti: icra başa çatmayıb

---

2018-ci ildə "Penitensiar qaydalar"da intizam cəzası qismində və formal intizam cəzasından savayı başqa məqsədlər üçün karserə salma ilə bağlı dəyişikliklər edilib: Penitensiar Şura tətbiq edilmiş cəzanın törədilmiş cinayətə görə həddən artıq sərt olduğunu hesab etdiyi təqdirdə hər hansı intizam cəzasını yüngülləşdirmək və ya ləğv etmək səlahiyyətinə malikdir. Həmçinin təkadamlıq kamerada olan məhbuslar bütün məhbuslarla eyni qaydada məktub göndərmək və almaq hüququnu saxlayırlar və qanunla müəyyən edilmiş minimum görüş və telefon əlaqəsi hüquqlarına malikdirlər.

***KİP / Onoufriou (24407/04)***

***Yekun qərar 07/04/2010***

**Yekun qətnamə CM/ResDH(2019)86**

---

İnzibati təcrid tədbirləri barədə qərarlar 2009-cu il tarixli Qanun əsasında qəbul edilir. Onların meyarları Ədliyyə Nazirliyinin 2010-cu il tarixli qərarında ətraflı təsvir edilmişdir. Məhkumların sağlamlığına gəlincə, 2010-cu ildə dəyişiklik edilmiş Cinayət Prosessual Məcəlləsi tələb edir ki, bu cür tədbirlərə məruz qalan məhbuslar həftədə ən azı iki dəfə və həkimin zəruri hesab etdiyi hallarda daha tez-tez həkim müayinəsindən keçməlidirlər.

***FRA / Khider (39364/05)***

***Yekun qərar 09/10/2009***

**Yekun qətnamə CM/ResDH(2012)82**

Cəzaların icrası haqqında qanunda bədəndə axtarışlarla bağlı hüquqi bazaya da dəyişiklik edilib. Cinayət Prosessual Məcəlləsində dəyişiklik etmiş 2010-cu il tarixli fərmanda və həbsxana əməkdaşlarına ünvanlanmış 2011-ci il tarixli sirkulyarda qeyd edildiyi kimi, indi bədəndə axtarışların aparılması zərurilik və mütənasiblik prinsiplərinə uyğun olmalıdır. İnzibati məhkəmələrin presedent hüququ "hakimiyyət səlahiyyətindən sui-istifadəyə" qarşı, xüsusən də məhbusun pis rəftardan müdafiəsi ilə bağlı şikayət vermək imkanının istifadəsini genişləndirmişdir.

Təhlükəli məhbusların dəfələrlə bir həbsxanadan digərinə köçürülməsinə gəlincə, təhlükəsizlik ehtiyacları ilə məhbusun rifahı arasında balans gözlənilməlidir. Köçürülmə və bədəndə axtarışlarla bağlı qərarlardan inzibati məhkəmələrə şikayət verilə bilər.

***FRA / Frérot (70204/01)***

***Yekun qərar 12/09/2007***

**Yekun qətnamə CM/ResDH(2012)81**

---

2012-ci ildə "Cəzaların icrası haqqında" Qanuna edilən dəyişikliklər ömürlük azadlıqdan məhrum edilmiş məhbusların gücləndirilmiş nəzarət altında xüsusi ayrılmış cəzaçəkmə müəssisəsində saxlanması şərti ilə altı ayadək birnəfərlik kamerada saxlanma imkanını ləğv etdi. Həbsxana rəhbərliyi ömürlük azadlıqdan məhrum edilmiş məhbuslar üçün yenidən sosiallaşma proqramlarını və fəaliyyətlərini təmin etməlidir.

***LAT / Savics (17892/03)***

***Yekun qərar 27/02/2013***

**Yekun qətnamə CM/ResDH(2016)122**

Bundan əlavə, "Cəzaların icrası haqqında" Qanun, eləcə də Penitensiar Xidmətin 2012-ci il tarixli 283 saylı Qərarı bədəndə axtarışların aparılmasını tənzimləyir. Bütün bədəndə axtarışlar yalnız məhbusun davranışı onun saxlanması qadağan edilmiş və yaxud qaçmağa və ya cinayət törətməyə kömək etmək üçün nəzərdə tutulmuş əşyalara malik olduğuna əsaslı şübhə doğurduqda aparılır. Ömürlük azadlıqdan məhrum edilmiş məhbuslara qarşı xüsusi məhdudlaşdırıcı vasitələrdən (məsələn, əl və ayaq üçün qandal) istifadə edilməsi ilə bağlı Nazirlər Kabinetinin 2015-ci il tarixli "Həbs yerlərində vəzifəli şəxslər tərəfindən görülən xüsusi

tədbirlər haqqında" Qərarında nəzərdə tutulur ki, hüquqpozmanın, iğtişaşların və ya qaçmağa cəhdin qarşısını almaq üçün risklərin fərdi qaydada qiymətləndirilməsindən sonra bu cür tədbirlərdən istifadəyə icazə verilə bilər.

2003-cü ildə "Penitensiar qaydalar"da dəyişiklik edilərək ciddi rejimli həbsxanada (EBI) hər həftə çılpaq bədəndə axtarış aparma təcrübəsi ləğv edildi. Hazırda saxlanılan şəxsin çılpaq bədənində axtarış aparılıb-aparılmaması onun EBİ-də qalma müddətindən, bu cür axtarışların məhbusa təsirindən və xüsusən də bu axtarışların məqsədindən asılıdır. Bu cür axtarışların zəruriliyi hər bir halda fərdi qaydada qiymətləndirilir. Məhbuslar hazırda ləğv edilmiş çılpaq bədəndə adi axtarış praktikası nəticəsində dəymiş mənəvi ziyana görə kompensasiya almaq üçün dövlətə qarşı mülki iddia qaldırmaq imkanına malikdirlər.

***NİD / Lorse və başqaları (52750/99)***

***Yekun qərar 04/05/2003***

**Yekun qətnamə CM/ResDH(2009)133**

2015-ci ildə Cinayət Cəzalarının İcrası Məcəlləsinə edilmiş dəyişikliklərdən sonra "təhlükəli məhbus" statusu yalnız müstəsna hallarda tətbiq edilə bilər. Penitensiar xidmətin nəzarət orqanları penitensiar komissiyaların qərarı ilə verilmiş belə statusun məqsədəuyğunluğuna mütəmadi olaraq nəzarət edir və müvafiq məhbuslar belə qərarlara məhkəmə tərəfindən baxılmasını tələb etmək imkanına malikdirlər. Həmçinin "təhlükəli məhbus" rejiminin tətbiqinə məruz qalan məhbuslarla rəftarın yaxşılaşdırılması üçün tədbirlər görülmüşdür: Regional penitensiar xidmətlərin direktorlarına xatırladılmışdır ki, "təhlükəli məhbuslar" mədəni, maarifləndirici və idman tədbirlərində iştirak imkanına malik olmalıdırlar. Penitensiar xidmətlərin baş direktorunun 2010-cu il tarixli Təlimatına uyğun olaraq, "təhlükəli məhbusların" məhdud sosial ünsiyyət imkanlarının mənfi nəticələrinin balanslaşdırılması istiqamətində fəaliyyətlər gücləndirilməlidir. "Təhlükəli məhbus" statusu ilə bağlı məsələlər xüsusi olaraq həbsxana əməkdaşlarının təlim proqramlarına daxil edilmişdir.

***POL / Horych (13621/08)***

***Yekun qərar 17/07/2012***

**Yekun qətnamə CM/ResDH(2016)128**

Bədəndə axtarışla bağlı hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə 2010-cu ildə Ədliyyə Nazirliyi tərəfindən "Penitensiar müəssisələrin təhlükəsizliyi haqqında Əsasnamə" qəbul edildi. Bədəndə axtarış aparılması rejimi məhkumun aid edildiyi məhbus kateqoriyasından asılı idi. 2013-cü ildə geniş həbsxana islahatı kontekstində bütün məhbuslara münasibətdə bədəndə axtarış üçün vahid rejimi nəzərdə tutan "Azadlıqdan məhrum etmə növündə cəzaların icrası haqqında" Qanun və Milli Penitensiar Administrasiya tərəfindən müfəssəl Qaydalar qəbul edildi. 2018-ci il tarixli Qaydalara əsasən, ayda bir dəfə məhbusların kameralarında axtarış aparıla və məhbusların bədənində (geyimli vəziyyətdə) ümumi axtarış aparıla bilər. Bütün bədəndə axtarışlar yalnız qadağan olunmuş əşyaların və ya maddələrin saxlanmasının konkret əlamətləri əsasında aparıla bilər.

***RUM / Ciupercescu (№1) (35555/03)***

***Yekun qərar 15/09/2010***

**Yekun qətnamə CM/ResDH(2020)328**

Məhbusların daşınma şəraitinin pis olması və buna qarşı səmərəli hüquqi müdafiə vasitələrinin olmaması ilə bağlı Ali Məhkəmənin Plenumunun 2018-ci ildə qəbul etdiyi qərarda "penitensiar müəssisələrdə saxlanma şəraiti" ümumi termininin daşınma şəraitini də özündə əks etdirdiyini bildirib və bu şəraitlə bağlı şikayətlərə beynəlxalq standartlar və AİHM-in presedent hüququ əsasında baxılması barədə ölkədaxili məhkəmələrə göstəriş verib. Ali Məhkəmənin Məhkəmə Departamentinin məlumatına görə, 2020-ci ilin birinci yarısında saxlanılan şəxslərin daşınması zamanı vurulmuş zərərə və ya onların sağlamlığına yetirilmiş ziyana görə kompensasiya tələbləri üzrə 261 qərar qəbul edilib.

Daxili İşlər Nazirliyinin 2019-cu il tarixli əmri ilə məhkumların köçürülmələrinin sayının və müddətinin azaldılması ilə bağlı yeni qaydalar tətbiq edilib. Uzun məsafələrə daşımalarda istifadə edilən yeni həbsxana furqonlarına və xüsusi dəmir yolu vaqonlarına gəlincə, 2019-cu ildə Daxili İşlər Nazirliyi tərəfindən müəyyən edilmiş müvafiq texniki tələblərə cavab verməyən köçürmə avtomobillərinin parkını 2022-ci ilə qədər əvəz etməyə imkan verən büdcə vəsaiti 2020-ci ildə ayrılıb. Bundan başqa, Ədliyyə Nazirliyi həmçinin 2020-ci ildə məhbusların cəzalarının çəkilməsinin başlanması və ya davam etdirilməsi üçün onların təhvil verilməsinin praktiki həyata keçirilməsi ilə bağlı əmrlər verib. 2020-ci ilin oktyabr ayında dövlət sanitar həkiminin qərarı ilə məhkumların və həbsdə saxlanılan şəxslərin müxtəlif daşınma üsulları üçün sanitar-epidemioloji normalar müəyyən edilib.

***RUS / Tomov və başqaları (18255/10)***

***Yekun pilot qərar 07/09/2019***

**Fəaliyyət planı**

İcra vəziyyəti: icra başa çatmayıb

***RUS / Guliyev (24650/02)***

***Yekun qərar 19/09/2008***

**Fəaliyyət planı**

İcra vəziyyəti: icra başa çatmayıb

# 2. MƏHBUSLARIN FİZİKİ VƏ ƏQLİ SAĞLAMLIĞININ QORUNMASI, PSİXOLOJİ-SOSİAL DƏSTƏK GÖSTƏRİLMƏSİ VƏ SOSİAL REİNTEQRASİYAYA HAZIRLANMASI

## 2.1 Məhbusların fiziki və əqli sağlamlığının qorunması

*ALB / Dybeku və Grori (41153/06+)*

***Yekun qərar 02/06/2008***

**Yekun qətnamə CM/ResDH(2016)273**

"Məhkumların və həbsdə saxlanılan şəxslərin hüquqları və onlarla rəftar haqqında" 2014-cü il tarixli Qanun həbsdə saxlanılan şəxslərə tibbi yardımın bir çox aspektlərini, o cümlədən tibbi diaqnostika, xidmətlər, dərman və avadanlıqların təchizatını əhatə edir. O, məhbusları icbari tibbi sığorta sisteminə daxil edərək, hamı üçün tibbi xidmətlərdən ödənişsiz istifadəyə təminat verir. Tibbi yardımın göstərilməsi üçün inzibati prosedurlar təkmilləşdirilmişdir.

Əqli sağlamlıq pozuntusu olan məhbuslarla rəftar "Əqli sağlamlıq haqqında" 2012-ci il tarixli Qanuna əsaslanır və bu qanun təklif olunan xidmətlərin təşkilini, xüsusən də xüsusi müəssisələrdə təşkili üsullarını müəyyən edir. O həmçinin "psixi pozuntulardan əziyyət çəkən şəxslərin fiziki məhdudiyyətləri" ilə bağlı yeni standartları nəzərdə tutur. 2014-2015-ci illərdə Penitensiar Müəssisələrin Baş İdarəsi tərəfindən beş müxtəlif cəzaçəkmə müəssisəsində psixi pozuntusu olan məhkumlar üçün onların xüsusi ehtiyaclarına uyğun müalicə və terapiyanın həyata keçirildiyi xüsusi bölmələr açılmışdır. Onların imkanları, səlahiyyətli orqanların fikrincə, psixi sağlamlıq problemləri olan bütün məhbusların yerləşdirilməsi üçün kifayətdir.

2013-cü ildə şikayət proseduru Penitensiar Müəssisələrin Baş İdarəsinin rəhbərinin Protokolunda təsbit edilmişdir: qeyri-adekvat tibbi xidmətlə bağlı şikayətlər müəssisənin rəhbərinə ünvanlanmalı və on beş gün ərzində baxılmalıdır.

---

*BEL / L.B. (22831/08)*

***Yekun qərar 02/01/2013***

*BEL / W.D. (73548/13)*

***Yekun pilot qərar 06/12/2016***

**Fəaliyyət planı**

İcra vəziyyəti: icra başa çatmayıb

2007-ci ildə məhbuslara terapevtik qayğının yaxşılaşdırılmasına və onların sosial reinteqrasiyasının maksimum dərəcədə artırılmasına yönəlmiş geniş islahatlara başlanılmışdır. İslahat "qayğı yolu" fəlsəfəsi ətrafında aparılmışdır: göstərilən qayğı daim inkişaf etməli və pasiyentin ehtiyaclarına operativ cavab verməli, pasiyentin psixi vəziyyətində baş verən təkamüldən asılı olaraq bir qayğı müəssisəsi növündən digərinə (qapalı, açıq və ya gündüz qayğı müəssisələrinə) yerləşdirilməsinə və köçürülməsinə imkan verməlidir.

2016-cı ildə həbsxanaların psixiatriya korpuslarında uzun müddət saxlanılan pasiyentlərin müvafiq terapevtik müalicə almadan uzun müddət saxlanılması problemini aradan qaldırmaq üçün yerləşdirmə haqqında qanun qüvvəyə mindi və üçüncü baş plan qəbul edildi: şəxs yalnız qanunla nəzərdə tutulmuş ən ciddi səbəblərə görə və məhkəmə-psixiatriya ekspertizasının keçirilməsi şərti ilə belə korpuslara yerləşdirilə bilər.

2014 və 2017-ci illərdə Antverpen və Gentdə yeni məhkəmə psixiatriya mərkəzləri yaradılmışdır; 2022-ci ilə qədər daha üç mərkəzin yaradılması planlaşdırılır. İslahat hələ də davam etsə də, onun təsirinin ilkin təhlili pasiyentlərin sayının azaldığını və psixiatriya korpuslarında olarkən durumlarında dəyişiklik olduğunu göstərir. Bundan əlavə, "qayğı yollarının" koordinasiyasının əhəmiyyətinin dərk edilməsi məhbusların sosial reinteqrasiyaya doğru qayıdışını təmin etməyə yönələn qərarların qəbulu prosesini yaxşılaşdırmışdır.

| | |
|---|---|
| “İcbari tibbi sığorta haqqında” 2013-cü il tarixli Qanun bütün məhbusların icbari tibbi sığortasını nəzərdə tuturdu. Məhbuslar üçün tibbi xidmətdən istifadə imkanları və xidmət standartları ümumi əhali ilə eynidir. 2014-cü ildə Səhiyyə Nazirliyi Ədliyyə Nazirliyi ilə əməkdaşlıq çərçivəsində cəzaçəkmə müəssisələrində tibbi şəraitlə bağlı konkret normaları müəyyən edərək tikililər, işçi heyəti, tibbi-texniki təchizatla bağlı minimum şərtlər haqqında yeni qaydalar toplusunu dərc etdi. Qaydalar toplusunda həbsxanaların xəstəxanalarında tələb olunan təmir vəziyyəti və əsas avadanlıqlar ətraflı şəkildə göstərilmişdir. 2019-cu ildə həbsxanalar dövlət səhiyyəsinin informasiya texnologiyaları sisteminə qoşuldu. Həmçinin cəzaçəkmə müəssisələrinə əlavə tibbi heyət cəlb edildi. | ***XOR / Cenbauer (73786/01)***<br>***Yekun qərar 13/09/2006***<br>**Yekun qətnamə CM/ResDH(2020)225** |
| Müvafiq olaraq, 2010 və 2016-cı illərdə tikinti və ya təmir işləri aparılan penitensiar müəssisələrdə əlilliyi olan məhbuslar üçün giriş şəraitinin, o cümlədən sanitar qovşaqlara giriş şəraitinin uyğunlaşdırılması üzrə iki direktiv qəbul edilmişdir. Bundan əlavə, həbsxanalarda məişət işlərinə yardım üçün yardım xidmətləri ilə müqavilələr bağlanmışdır.<br><br>2014-cü ildə cəzaların fərdiləşdirilməsi və cinayət sanksiyalarının səmərəliliyinin artırılması haqqında qanunla iki yeni tədbir tətbiq edilmişdir: tibbi səbəblərə görə cəzadan azad edilmə və tibbi səbəblərə görə şərti azadlığa buraxılma. 2015-ci ildə qocalma və ya əlilliklə bağlı davranış sərbəstliyinin itirilməsi hallarının müəyyənləşdirilməsi və idarə edilməsi üzrə layihəyə başlanıldı ki, bunda da məqsəd tibbi səbəblərə görə belə şəxslərin cəzalarının yüngülləşdirilməsi və azadlığa buraxılması və saxlanma şəraitinin yaxşılaşdırılmasından ibarət idi. 2017-ci ildə Ədliyyə Nazirliyi və Həmrəylik və Səhiyyə Nazirliyi tərəfindən səhiyyə və ədliyyə işçiləri üçün tibbi səbəblərə görə cəzaların yüngülləşdirilməsi və cəzadan azad edilmə məsələləri ilə bağlı metodiki vəsait hazırlandı. | ***FRA / Helhal (10401/12)***<br>***Yekun qərar 19/09/2017***<br>**Yekun qətnamə CM/ResDH(2017)260** |
| 2008-ci ildə ağır dərəcəli əlilliyi olan məhbusların sanitariya-gigiyena obyektlərinə adekvat çıxışını təmin etmək üçün həbsxana rəhbərliyi əsasən qısamüddətli cəzaçəkmə müəssisələrində yerləşən 118 kameranı hərəkət qüsuru olan məhbuslar üçün uyğunlaşdırdı. 2012-ci ildə Liankur təcridxanasında əlillər üçün 20 kamera yenidən layihələndirildi. 2014-cü ilədək Fleri-Meroji, Marsel və Nant həbsxanalarında əlilliyi olan şəxslər üçün nəzərdə tutulan əlavə kameraların təmin edilməsi planlaşdırıldı. Bundan başqa, 2015-ci ildən etibarən həbsxanaların şəraitinin əlilliyi olan şəxslərin ehtiyaclarına uyğunlaşdırılmasına yönələn 13.200 yerlik tikinti proqramı davam etdirilir. | ***FRA / Vincent (6253/03)***<br>***Yekun qərar 26/03/2007***<br>**Yekun qətnamə CM/ResDH(2009)79** |
| Psixi sağlamlıq problemləri olan məhbuslara vaxtında və adekvat qayğı göstərilməsini təmin etmək üçün psixi sağlamlıq problemlərinin adekvat profilaktikasını və müalicəsini təmin etmək və məhbusların müvafiq ixtisaslaşdırılmış psixiatriya xidmətlərinə çıxışını təmin etmək məqsədilə bütün penitensiar müəssisələr yetərli sayda həkim-psixiatr/psixiatr-konsultant ilə təchiz edilmişdir. Bundan əlavə, bütün məhkumların ilkin səhiyyə xidmətlərindən və ixtisaslaşdırılmış xidmətlərdən istifadəsini təmin etmək məqsədilə Cəzaların İcrası və Hüquqi Yardım Nazirliyi “Penitensiar səhiyyə sisteminin inkişaf strategiyası”nı (2014-2017) hazırlamışdır. | ***GÜR / Jashi (10799/06)***<br>***Yekun qəarar 08/01/2013***<br>**Yekun qətnamə CM/ResDH(2014)162** |
| Həbsxanalarda tibbi xidmət strukturunun qeyri-adekvatlığını aradan qaldırmaq üçün 2010-2013-cü illər arasında geniş islahatlar aparılmışdır. 2011-ci il tarixli Penitensiar Məcəllədə məhbusların sağlamlıq hüquqları nəzərdə tutulmuş və şikayət vermək kimi müvafiq prosessual hüquqları təmin edilmişdir. Penitensiar səhiyyə sistemi büdcənin artırılması, həbsxana xəstəxanalarının modernləşdirilməsi, hepatit C, HİV və vərəm əleyhinə proqramlar və iddia edilən işgəncə və pis rəftar nəticəsində xəsarətlərin qeydiyyatı da daxil olmaqla bir sıra tədbirlər sayəsində “Avropa penitensiar qaydaları”na və İşgəncələrin qarşısının alınması üzrə Komitənin (CPT) tövsiyələrinə uyğunlaşdırılıb. 2019-cu ildə məhkumların sağlamlığının və onlara tibbi xidmətin daha da yaxşılaşdırılması, narkotik və alkoqol aludəçiliyi hallarının müəyyən edilməsi, həm tibbi, həm də reabilitasiya xidmətləri vasitəsilə məhkumların öz sağlamlığıma zərər yetirməsi hallarının azaldılmasına yönələn yanaşmanın inkişaf etdirilməsi məqsədi ilə Ədliyyə Nazirliyi tərəfindən “Penitensiar sistemin və cinayətkarlığın qarşısının alınması sisteminin inkişafına dair strategiya və fəaliyyət planı” qəbul edilib. | ***GÜR / Ghavtadze (23204/07)***<br>***Yekun qərar 27/10/2010***<br>**Yekun qətnamə CM/ResDH(2014)209** |

2016-cı ildə “Cəzaçəkmə müəssisələrində səhiyyə xidmətinin gücləndirilməsi” layihəsi çərçivəsində həbsxana xəstəxanasının milli səhiyyə sisteminə inteqrasiyası sayəsində Koridallos həbsxanasında HİV testi pozitiv olan məhbusların adekvat müalicəsi mümkün olmuşdur. Nəticədə psixiatriya korpusunda pasiyent sıxlığı da azalmışdır.

*YUN / Martzaklis və başqaları (20378/13)*

*Yekun qərar 09/10/2015*

Yekun qətnamə CM/ResDH(2019)237

---

2013-2018-ci illər arasında aparılan dərin islahatlar kontekstində, həbsdə saxlanma zamanı müvafiq tibbi xidmət və müalicəni təmin etmək üçün penitensiar müəssisələrdə səhiyyə xidmətlərinin göstərilməsi səlahiyyəti Ədliyyə Nazirliyindən Milli Səhiyyə Xidmətinə verildi. Artıq məhbuslara və digər vətəndaşlara bərabər səviyyədə tibbi xidmət göstərilir.

Bundan başqa, məhbusların sağlamlıq vəziyyətinin onların həbsdə saxlanması ilə uzlaşmadığının iddia edildiyi işlər üzrə Kassasiya Məhkəməsinin təcrübəsi Avropa Məhkəməsinin presedent hüququnda təsbit olunan Konvensiya tələblərini mütləq şəkildə özündə ehtiva edir. Bu kontekstdə, məsələn, Konstitusiya ilə təmin edilən sağlamlıq hüququ və humanizm prinsipi əsasında ağır xəstəliyə görə cəzanın icrasının dayandırılması imkanları, məhkumun lazımi qayğıya olan ehtiyacı ilə cəmiyyətin təhlükəsizlik ehtiyacları arasında balansın gözlənilməsi nəzərə alınmaqla, genişləndirilib.

*İTA / Cirillo (36276/10)*

*Yekun qərar 29/04/2013*

*İTA / Scoppola (50550/06)*

*Yekun qərar 26/01/2009*

Yekun qətnamə CM/ResDH(2019)327

---

“Həbsxanada olan şəxslər üçün tibbi yardım xidmətləri haqqında” 2019-cu il tarixli Qaydalarda nəzərdə tutulmuşdur ki, qabaqlayıcı həbsdə saxlanılan şəxslərə və məhkum olunmuş məhbuslara həkimlərinin tövsiyə etdiyi, artıq alınmış və ya həbsdən əvvəl istifadə edilmiş bütün tibbi vasitələrin istifadəsini və əldə edilməsini davam etdirməyə icazə verilir. Bundan əlavə, daxili məhkəmələrin presedent hüququnda qabaqlayıcı həbsdə saxlanılan şəxslərə adekvat tibbi müalicə və ya tibbi xidmət göstərilməsinə ehtiyac olduğu vurğulanır.

*LİT / Urbonavicius (549/17)*

*Yekun qərar 21/05/2019*

Yekun qətnamə CM/ResDH(2020)109

---

2014-cü ilə qədər əlilliyi olan məhkumlara adekvat şəraiti təmin etmək üçün bir neçə həbsxanada təmir və yenidənqurma işləri aparılıb. Valmiera həbsxanasında əlil arabasında olan bütün məhbuslar xüsusi təchiz olunmuş bölmədə saxlanılır ki, bu da onların kənar şəxsin köməyi olmadan bina daxilində hərəkət etməsinə imkan verir.

2011-ci ildə Yetkinlik yaşına çatmayanlar üçün Sesis islah müəssisəsi əlilliyi olan məhkumlar üçün nəzərdə tutulmuş əlil arabası üçün panduslar, lift və tualet avadanlığı ilə təchiz edilmişdir.

Olaynedə yerləşən həbsxananın xəstəxanası 2007-ci ildə açılıb, burada əlil məhbuslar üçün xüsusi lift və kameralar mövcuddur.

*LAT / Holodenko (17215/07)*

*Yekun qərar 04/11/2013*

Yekun qətnamə CM/ResDH(2018)382

---

2019-cu ildə ikisi istisna olmaqla bütün penitensiar müəssisələr sonrakı tibbi akkreditasiya üçün zəruri olan sanitar icazələri alıb və Milli Penitensiar Administrasiya (MPA) məhkumlara tibbi xidmət göstərilməsi üçün dövlət səhiyyə müəssisələri ilə müqavilələr bağlayıb. Doqquz penitensiar müəssisə yeni tibbi avadanlıqla təmin olunub. Tələb olunduqda, müdaxilə üçün müstəqil həkimlərə və mobil təcili yardım briqadalarına müraciət edilə bilər.

*MOL / I.D. (47203/06)*

*Yekun qərar 11/04/2011*

Fəaliyyət hesabatı

İcra vəziyyəti: icra başa çatmayıb

---

2013-2015-ci illər ərzində xüsusi qayğıya ehtiyacı olan məhbusların yaşayış şəraitinin yaxşılaşdırılması və müəssisələrdə qarşılaşdıqları arxitektura baryerlərinin aradan qaldırılması istiqamətində tədbirlər həyata keçirilmişdir. 2015-ci ildə “Maneələrsiz Polşa” Fondu ilə əməkdaşlıq

*POL / Orchowski (17885/04)*

*Yekun qərar 20/09/2016*

---

çərçivəsində həbsxana əməkdaşlarının əlilliyi olan məhbusların ehtiyaclarına daha həssas yanaşması, əlilliyi olan şəxslərə münasibətdə arzuolunmaz davranışlara qarşı mübarizə yollarının nümayiş etdirilməsi məqsədilə təlim tədbirləri keçirilmişdir.

Yekun qətnamə
CM/ResDH(2016)254

---

Məhbuslar üçün sosial təminat və tibbi yardım sistemindəki çatışmazlıq səbəbindən məhbusa diş protezi verməkdən imtina edildikdən sonra 2013-cü il tarixli "Məhkəmə orqanlarının təyin etdiyi cəzaların icrası haqqında" Qanunda ayrı-seçkiliyə yol verilmədən azadlıqdan məhrum edilmiş şəxslər üçün pulsuz tibbi yardım, müalicə və qulluq təmin edilib. Xərclər Milli Çərçivə Müqaviləsində müəyyən edilmiş şərtlərə uyğun olaraq Sosial Tibbi Sığorta Fondunun büdcəsi hesabına ödənilir. Həmçinin CASAOPSNAJ Milli Sağlamlıq Sığortası Fondu ilə müqavilələr bağlanmışdır.

***RUM / V.D.***
***(7078/02)***

*Yekun qərar*
*28/06/2010*

Yekun qətnamə
CM/ResDH(2017)349

Ədliyyə naziri ilə Səhiyyə nazirinin "Milli Penitensiar Administrasiyanın nəzarətində olan məhbusların sağlamlığına dair" 2012-ci il tarixli ümumi əmri stomatoloji yardımın həbsxanadakı və ya həbsxana xəstəxanalarındakı stomatoloji kabinetlərdə təmin edilməsini nəzərdə tutur. 2014-2016-cı illər ərzində 11 məhkuma diş protezi verilib. 2016-cı ildə doqquz tam ştatlı stomatoloq Milli Penitensiar Administrasiya tərəfindən işə götürülüb.

***RUM / Dragan***
***(65158/09)***

*Yekun qərar*
*02/05/2016*

Fəaliyyət planı

İcra vəziyyəti: icra başa çatmayıb

---

## 2.2 Psixoloji-sosial dəstək və sosial reinteqrasiyaya hazırlıq

2014-cü ildən etibarən penitensiar müəssisələr, xüsusən Dauqavqriva həbsxanası sinif otaqlarından və peşə məktəbindən; kitabxana və iki qapalı idman zalından; məhbusların demək olar ki, gündəlik istifadə edə biləcəyi açıq idman meydançasından; və sosial reabilitasiya bölməsindən ibarət təhsil mərkəzi yaradılmaqla təhsil, fiziki və digər sosial fəaliyyətlərə şərait yaratmaq üçün lazımi imkanlarla təchiz edilmişdir.

***LAT / Kadikis (№2)***
***(62393/00)***

*Yekun qərar*
*04/08/2006*

Yekun qətnamə
CM/ResDH(2016)122

---

Cəzaların İcrası üzrə Federal Xidmət (FSIN) tərəfindən idarə olunan hər bir təcridxanada yeni gələn hər bir məhbusun psixo-diaqnostik müayinəsi aparılır. Nəticələr sonradan psixoloji yardım üçün nəzərə alınır.

***RUS / Kalashnikov***
***(47095/99)***

*Yekun qərar*
*15/10/2002*

Fəaliyyət planı

İcra vəziyyəti: icra başa çatmayıb

İntiharların qarşısının alınması fəaliyyətlərinə məhbuslarla, eləcə də işçilərlə iş daxildir, sonunculara psixoloji cəhətdən problemli davranışları aşkar etmək üsulları öyrədilir. Nəticədə 2018-ci ildə intiharların sayı əvvəlki illə müqayisədə 10% azalıb.

Məhbusların sosial reabilitasiyasına gəlincə, 2018-ci ildə məhbusların ailə üzvləri, habelə vətəndaş cəmiyyəti nümayəndələri və digər dəvətlilərin iştirakı ilə 1.700-ə yaxın açıq qapı günü tədbiri keçirilib. Konsertlər, viktorinalar və s. kimi digər sosiallaşma tədbirləri təşkil edilib.

Təhsilə gəlincə, 2017-2018-ci illər ərzində 276 təhsil müəssisəsini və onların cəzaçəkmə müəssisələrində fəaliyyət göstərən 503 filialını 17.200-ə yaxın məhkum bitirib. 2018-2019-cu tədris ilinin əvvəlində 62 min məhkum təhsilini davam etdirirdi. Sənətkarlıq peşələrinə gəldikdə, 2017-2018-ci tədris ilində 143 minə yaxın məhkum diplom alıb. 2018-ci ildə məhkum edilmiş məhbusların 40,3%-i işlə təmin olunub. Onların orta aylıq əmək haqqı 30,4 faiz artıb.

---

2005-ci ildə yetkinlik yaşına çatmayan məhbusların təhsil və peşə, eləcə də sosial reinteqrasiya təlimlərindən faydalanmasını təmin edən qanun qəbul edilmişdir. Həbsxana rəhbərliyinin yetkinlik yaşına çatmayan məhbusların reabilitasiya şanslarını artıra və onların psixososial risk səviyyəsini (intihar da daxil olmaqla) qiymətləndirə bilməsi üçün 2010-cu ildə "Fərdiləşdirilmiş rəftar sistemi" (BISIS) yaradılmışdır.

***TÜR / Güvec (70337/01)***

***Yekun qərar 20/04/2009***

**Fəaliyyət hesabatı**

İcra vəziyyəti: icra başa çatmayıb

# 3. QABAQLAYICI HƏBS VƏ POLİS TƏCRİDXANALARINDA SAXLANMA

| | |
|---|---|
| 2009-cu ildə səlahiyyətli orqanlar Numeadakı polis təcridxanasının köhnəlmiş kameralarını standartlara uyğunlaşdırmaq üçün tədbirlərə başladılar. Təmir işləri 2011-ci ildə başa çatdırıldı. Əvvəlki təcridxana kameraları sökülərək yenidən tikildi. | *FRA / Fakailo dit Safoka və başqaları (2871/11)*<br>***Yekun qərar 02/01/2013***<br>**Yekun qətnamə CM/ResDH(2018)83** |
| Aleksandras prospektindəki (Afina) polis idarəsində və Drapetsona (Pirey) polis təcridxanasında qeyri-adekvat saxlanma şəraiti səbəbindən ləyaqəti alçaldan rəftarın baş verməsi ilə əlaqədar olaraq, 2006-2007-ci illər arasında müxtəlif polis idarələrində yeddi yeni təcridxana açıldı, bunlardan dördü sərhəd adaları olan Xios, Samos, Lesbos və Korfu adalarındadır. Bundan əlavə, böyüklərin, yetkinlik yaşına çatmayanların və ailələrin yerləşdirilməsi üçün müvafiq tibb personalı ilə təmin edilmiş xüsusi qəbul mərkəzləri yaradılmışdır. | ***YUN/ Dougoz (40907/98)***<br>***Yekun qərar 06/06/2001***<br>**Yekun qətnamə CM/ResDH(2009)128** |
| 2009-cu ildə polis təcridxanalarında saxlanılan şəxslərin hüquqlarının müdafiəsini təmin etmək və təhlükəsiz və sağlam mühit yaratmaq məqsədi daşıyan "2009-2015-ci illər üçün polis təcridxanalarının optimallaşdırılması proqramı" qəbul edilib. Pis vəziyyətdə olan 21 polis təcridxanası bağlanıb. Bundan əlavə, polis təcridxanasında məhbusların sanitariya-gigiyena qovşaqlarına çıxış imkanı və kameradan kənar fəaliyyətlərinin təşkili yaxşılaşdırılıb. | *LİT / Kasperovicius (54872/08)*<br>***Yekun qərar 20/03/2013***<br>**Yekun qətnamə CM/ResDH(2017)34** |
| 2006-cı ildə əlilliyi olan şəxslərin polis nəzarətində təhlükəsiz şəraitdə saxlanmasına və onlarla rəftara dair yeni təlimat dərc edilmişdir. Bu təlimata, 1995 və 2005-ci il tarixli Qanunlara və daha sonra 2010-cu il tarixli "Bərabərlik haqqında" Qanuna (1 oktyabr 2010-cu il tarixindən qüvvəyə minmiş bu Qanun sözügedən iki qanunu əvəz etmişdir) əsasən, polis orqanlarından polis nəzarətində saxlanılan əlilliyi olan şəxslərin ehtiyaclarını təmin etmək üçün polis bölmələrində ağlabatan korrektə işlərinin aparılması tələb olunur. Bərabərlik və İnsan Hüquqları üzrə Komissiya "Bərabərlik haqqında" Qanunun pozuntularını araşdırmaq və qanunda nəzərdə tutulmuş hüquqların pozulub-pozulmadığının müəyyənləşdirilməsi üçün məhkəmə proseslərində müvafiq şəxslərə yardım göstərmək səlahiyyətinə malikdir. | *BK / Price (33394/96)*<br>***Yekun qərar 10/10/2001***<br>**Yekun qətnamə CM/ResDH(2011)286** |

# 4. MƏHBUSLARIN HƏBSXANA ƏMƏKDAŞLARI VƏ YA DİGƏR MƏHBUSLAR TƏRƏFİNDƏN TÖRƏDİLƏN PİS RƏFTARDAN MÜDAFİƏSİ VƏ BELƏ RƏFTARIN QARŞISININ ALINMASI

Müharibə cinayətlərinə görə məhkum olunmuş məhbusların digər məhbuslar tərəfindən etnik motivli təqiblərdən qorunmasını təmin etmək və bununla bağlı səmərəli hüquqi müdafiə vasitəsini təmin etmək üçün 2010-cu ildə məhkumların Zenitsadakı islah müəssisələrində yerləşdirilməsi haqqında yeni Təlimat qəbul edilmişdir. Əlavə həbsxana əməkdaşları, habelə Federal Ədliyyə Nazirliyinin Cinayət cəzalarının icrası departamentinin müfəttişləri işə qəbul edilmişdir. Penitensiar müəssisələrdə mütəmadi olaraq yoxlamalar aparılır. Həmçinin mövcud tikililərdə sıxlığın qarşısını almaq üçün 2011-ci ildə Mostarda həm qapalı, həm də yarı açıq tipli islah müəssisəsinin tikilməsi qərara alınıb.

***BVH / Rodic və başqaları (22893/05)***

*Yekun qərar 01/12/2008*

Yekun qətnamə CM/ResDH(2011)93

---

Məhbusun kamera yoldaşları tərəfindən törədilən pis rəftarın qarşısını almaq üçün 2014-cü ildə “2013-cü il üçün cinayət cəzalarının icrası sisteminin inkişafına dair Milli Strategiya” əsasında “Cinayət cəzalarının icrası haqqında” Qanun qəbul edilib, həmin qanunda penitensiar xidmətin həbsdə zorakılıq risklərini monitorinq etmək öhdəliyi də nəzərdə tutulub. 2015-ci ildə qəbul edilmiş “Cəzaçəkmə müəssisələrinin işinə nəzarət qaydaları toplusu” bu nəzarətin prosessual detallarını müəyyən etmişdir. Həbsxana əməkdaşlarının əmək müqaviləsinə, digər səbəblərlə yanaşı, penitensiar müəssisənin daxili qaydalarının pozulması (o cümlədən məhbuslar arasında zorakılıq) halları barədə məlumat verməməyə görə xitam verilə bilər. Bundan əlavə, tibb işçiləri məhbusların aldıqları xəsarətlərin konkret uçotunu aparmalı və zorakılıq əlamətləri barədə müəssisə nəzarətçisinə məlumat verməlidirlər. Dövlət orqanları iddia edilən cinayət əməlləri, o cümlədən məhbuslar arasında zorakılıq halları barədə prokurorluğa məlumat verməyə borcludurlar, prokurorluq isə pis rəftar barədə iddiaları araşdırmalı və vəzifə səlahiyyətinə uyğun olaraq cinayət təqibini həyata keçirməlidir. Cəzaçəkmə müəssisəsi və tibb işçiləri üçün geniş təlim və maarifləndirmə tədbirləri təşkil olunmuşdur.

***SER / Gjini (1128/16)***

*Yekun qərar 15/04/2019*

Yekun qətnamə CM/ResDH(2020)79

---

İstintaq təcridxanalarında saxlanılan şəxslərin və ya məhbusların qollarına qandal taxılmasının (həm ümumi vəziyyətlərdə, həm də onlar xəstəxanalarda və ya digər tibb müəssisələrində olarkən) yalnız müstəsna hallarda və təhlükəsizlik səbəbləri ilə tam əsaslandırıldığı təqdirdə istifadə olunmasını təmin etmək üçün “İstintaq təcridxanalarının və penitensiar xidmətlərin fəaliyyətini tənzimləyən daxili qaydalar”a, habelə “Məhkəməyəqədər həbs haqqında” Qanuna 2018-2019-cu illərdə dəyişiklik edilib, həmçinin cəzaçəkmə müəssisələrinin müvafiq praktikası təkmilləşdirilib. Məhbusların fiziki müqavimətinə, zorakılığına, təhqiramiz davranışına və həbsxana rəhbərliyinin qanuni göstərişlərinə qarşı çıxmasına son qoymaq üçün həbsxana əməkdaşlarının gücdən və xüsusi vasitələrdən, o cümlədən qandallardan, dəyənəklərdən və sairədən istifadə etmək hüququ var, amma onlar bu vasitələrdən yalnız qanuni məqsədə çatmaq üçün digər vasitələr səmərəsiz olduqda istifadə edə bilərlər. Həbsdə saxlanılan şəxslərin/məhkumların qandal vasitəsilə hər hansı əşyalara, məsələn, mebelə və sairəyə bağlanması qadağandır.

***UKR / Okhrimenko (53896/07)***

*Yekun qərar 15/01/2010*

Yekun qətnamə CM/ResDH(2020)236

---

# 5. MİLLİ TƏFTİŞ, MONİTORİNQ VƏ ŞİKAYƏT SİSTEMLƏRİ – SƏMƏRƏLİ HÜQUQİ MÜDAFİƏ VASİTƏLƏRİ

## 5.1 Milli təftiş, monitorinq və şikayət sistemləri

2013-cü ildə şikayət proseduru Penitensiar Müəssisələrin Baş İdarəsinin rəhbərinin Protokolunda təsbit edilmişdir: qeyri-adekvat tibbi xidmətlə bağlı şikayətlər müəssisənin rəhbərinə ünvanlanmalı və on beş gün ərzində araşdırılmalıdır. Bütün şikayət və müraciətlər qeydiyyata alınır, o cümlədən sağlamlıq problemləri ilə bağlı təcili şikayətlər müəyyən edilir.

Məhbuslar həmçinin dövlət orqanlarına, o cümlədən Ombudsmana, xarici və ya yerli QHT-lərə məxfi şikayətlər verə bilərlər. Belə müraciətləri asanlaşdırmaq üçün bütün cəzaçəkmə müəssisələrində poçt qutuları və telefon cihazları (ödənişsiz) quraşdırılıb. Ombudsman və QHT-lər məlumat əldə etmək imkanına malikdirlər, həbsxanaların və ya təcridxanaların binalarında əlavə araşdırmalar və yoxlamalar apara bilərlər. Onların nümayəndələrinə məhbuslarla təkbətək, polis əməkdaşlarının iştirakı olmadan görüş keçirmək hüququ verilir.

***ALB / Dybeku və Grori (41153/06+)***

***Yekun qərar 02/06/2008***

**Yekun qətnamə CM/ResDH(2016)273**

---

2019-cu ildə Konstitusiya Məhkəməsi qərara aldı ki, yeni qanun qəbul edilənədək İnzibati Məhkəmə cəzaçəkmə müəssisəsinin rəhbərliyinə qarşı şikayətlərə baxmaq hüququna malikdir. Prokurorluq penitensiar müəssisələrə nəzarət edir və əvvəlcədən xəbərdarlıq etmədən və ya icazə almadan onlara baş çəkməklə ölkədaxili qaydalara əməl olunmasını yoxlayır. Şikayətlər İnsan Hüquqları Müdafiəçisinin Ofisinə də verilə bilər.

***ERM / Mushegh Saghatemyan (23086/08)***

***Yekun qərar 20/12/2018***

**Fəaliyyət planı**

Status of execution: pending

---

2016-cı ildə "Həbsxanaların idarə olunması prinsipləri və məhbusların hüquqi statusu haqqında" 2005-ci il tarixli Qanuna dəyişiklik edildi və Federal Parlamentə (Nümayəndələr Palatasına) hesabat verən və "həbsxanalar üzərində müstəqil nəzarəti həyata keçirmək, məhbuslarla rəftara və onlarla bağlı qaydalara riayət edilməsinə nəzarət etmək" vəzifəsi daşıyan Həbsxanalara Mərkəzi Nəzarət Şurası (HMNŞ) yaradıldı. Hər bir cəzaçəkmə müəssisəsində yerli müşahidə şurası fəaliyyət göstərir və cəzaçəkmə müəssisəsinin direktoru tərəfindən və ya onun adından qəbul edilmiş qərarlara qarşı məhkumların şikayətlərinə baxmaq üçün şura üzvlərindən ibarət şikayət komissiyası yaradılır. Şikayət komissiyasının qərarından Həbsxanalara Mərkəzi Nəzarət Şurasına apellyasiya şikayəti verilə bilər, o həmçinin yerləşdirilmə və köçürülmə ilə bağlı qərarları, habelə məhkumların öz seçdiyi həkim tərəfindən müalicə olunmaq barədə xahişlərini araşdırır. 2019-cu ildə "Həbsxanaların idarə olunması prinsipləri və məhbusların hüquqi statusu haqqında" Qanuna edilən dəyişiklikdən sonra (2020-ci ilin oktyabr ayından qüvvədədir) məhbuslar onlarla bağlı qəbul edilmiş bütün inzibati qərarlardan Həbsxanalara Mərkəzi Nəzarət Şurasına şikayət etmək hüququna malikdirlər.

***BEL / Bamouhammad (47687/13)***

***Yekun qərar 17/02/2016***

**Fəaliyyət hesabatı**

İcra vəziyyəti: icra başa çatmayıb

***BEL / Vasilescu (64682/12)***

***Yekun qərar 20/04/2015***

**Fəaliyyət planı**

İcra vəziyyəti: icra başa çatmayıb

---

2018-ci ildə "Həbsxanalar haqqında" Qanuna dəyişiklik edildi və bununla da Penitensiar Şura həbsxana rəhbərliyindən tam müstəqil oldu, onun üzvləri həbsxana rəhbərliyi ilə institusional, inzibati, peşə və ya digər növ əlaqəsi olmayan şəxslərdən ibarət oldu. Penitensiar Şura məhbuslar tərəfindən təqdim edilən hər hansı ərizə və ya şikayəti dinləyir və araşdırır və təklifləri barədə həbsxananın rəhbərinə məlumat verir. O həmçinin məhbusların saxlanma və iş şəraiti, maddi şəraiti, həbsxanada mövcud olan təhsil proqramlarının adekvat olub-olmaması, habelə həbsxana rəhbərliyinin məhbuslarla rəftarda səlahiyyətlərini aşıb-aşmadığını araşdırır. O, məhbusların rifahı ilə bağlı məsələlərdə həbsxananın rəhbəri ilə əməkdaşlıq edir.

***KİP / Onoufriou (24407/04)***

***Yekun qərar 07/04/2010***

**Yekun qətnamə CM/ResDH(2019)86**

***KİP / Danilczuk (21318/12)***

***Yekun qərar 03/07/2018***

**Fəaliyyət planı**

İcra vəziyyəti: icra başa çatmayıb

---

Baş Prokurorluq və onun ərazi qurumları tərəfindən cəzaçəkmə müəssisələrində və istintaq təcridxanalarında saxlanma şəraitinin monitorinqi, o cümlədən regional insan hüquqları müvəkkillərinin və ictimai monitorinq komissiyalarının iştirakı ilə yoxlama məqsədli başçəkmələr aktiv surətdə həyata keçirilib. 2018-ci ildə prokurorlar tərəfindən qanun pozuntularının aradan qaldırılması ilə bağlı 51,1 mindən çox yoxlama aparılıb, 27,1 min vəsatət təqdim edilib, qanunsuz hüquqi aktlara qarşı 6,4 min protest verilib.

Cəzaların İcrası üzrə Federal Xidmət 2017 və 2018-ci illərdə penitensiar sistemdə insan hüquqlarına riayət olunmasına nəzarət edən 24 köməkçi təyin edib və onlara təlim keçib. 2018-ci ildə bütün həbs yerlərində 32 kompleks yoxlama, istintaq təcridxanalarında 1.100-dən çox sanitar-epidemioloji yoxlama, habelə saxlanma yerlərinə yüksək rəhbərlik tərəfindən 48 başçəkmə həyata keçirilib.

2018-ci ildə federal və regional səviyyələrdə insan hüquqları üzrə müvəkkillər həbsxanalara və istintaq təcridxanalarına 1.200 dəfədən çox baş çəkmiş, eyni zamanda regional səviyyədə insan hüquqları üzrə müvəkkillər polis təcridxanalarına 817 dəfə baş çəkmişlər. Həmçinin 2018-ci ildə ictimai müşahidə komissiyalarının (İMK) üzvləri tərəfindən cəzaçəkmə müəssisələrinə və istintaq təcridxanalarına 3.800-dən çox, o cümlədən polis təcridxanalarına 1000-ə yaxın başçəkmə həyata keçirilmişdir. Hazırda bu komissiyalarda Rusiya Federasiyasının 83 subyektində 1.100-dən çox şəxs çalışır.

***RUS / Kalashnikov (47095/99)***

***Yekun qərar 15/10/2002***

**Fəaliyyət planı**

İcra vəziyyəti: icra başa çatmayıb

---

Ədliyyə Nazirliyinin Penitensiar Təftiş Departamenti cəzaçəkmə müəssisələrinin monitorinqinə cavabdehdir və 2020-ci ildə zərurət olduqda həbsxana əməkdaşlarına qarşı ittihamlar üzrə araşdırmaları davam etdirib. 2020-ci ildə Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Respublika Prokurorluğu, Müdafiə Nazirliyi, Sosial Siyasət Nazirliyi, Səhiyyə Nazirliyi və Ombudsman Aparatı nümayəndələrinin iştirakı ilə idarələrarası işçi qrupu penitensiar müəssisələrdə və məhkəməyəqədər həbs yerlərində təftişlərin aparılması üçün ümumi təlimatların hazırlanmasına başlamışdır.

***UKR / Yakovenko (15825/06)***

***Yekun qərar 25/01/2008***

**Fəaliyyət planı**

İcra vəziyyəti: icra başa çatmayıb

---

## 5.2 Səmərəli (qabaqlayıcı və kompensasiyaedici) hüquqi müdafiə vasitələri

2017-ci ildə penitensiar sistemdə həyata keçirilən mühüm islahat nəticəsində həddən artıq məhbus sıxlığı, pis sanitar və maddi şərait, kameradan kənar fəaliyyət imkanlarının məhdudluğu, qeyri-adekvat tibbi xidmət və məhdudlaşdırıcı cəza rejiminin uzun müddət tətbiq edilməsi səbəbindən

***BOL / Kehayov (41035/98)***

***Yekun qərar***

| | |
|---|---|
| yaranan problemlərin həlli üçün müxtəlif tədbirlər həyata keçirilib. Qanunda həmçinin saxlanma şəraitindən şikayət etmək üçün xüsusi kompensasiyaedici, eləcə də qabaqlayıcı hüquqi müdafiə vasitəsi nəzərdə tutulub və hər iki vasitə Avropa Məhkəməsi tərəfindən səmərəli hesab edilir. | *18/04/2005*<br>Fəaliyyət planı<br>İcra vəziyyəti: icra başa çatmayıb |
| Saxlanılan şəxslər saxlanma şəraitinin pis olması səbəbindən dəymiş ziyanın ödənilməsi üçün mülki prosesə başlaya bilərlər. Həmçinin hökmlərin icrasına cavabdeh olan hakim saxlanma şəraiti ilə bağlı məhkumun verdiyi təxirəsalınmaz şikayəti qəbul edə və onunla bağlı qərar çıxara bilər. Konstitusiya Məhkəməsi Avropa Məhkəməsinin qərarlarına uyğun olaraq öz presedent hüququnu daha da inkişaf etdirmişdir. | ***XOR / Cenbauer (73786/01)***<br>*Yekun qərar 13/09/2006*<br>Yekun qətnamə CM/ResDH(2020)225 |
| “Dövlətin məsuliyyəti haqqında” 2002-ci il tarixli Qanuna əsasən, məhbus lazımi şəraitin təmin edilməsini, o cümlədən şəxsi məskunlaşma sahəsinin artırılmasını və/yaxud başqa yerə köçürülməsini tələb edə bilər. Ali Məhkəmə 2010-cu il tarixli qərarında müvafiq təlimatlar vermişdir. Ölkədaxili inzibati məhkəmələr həmçinin həbsxanalarda və saxlanma yerlərində saxlanma şəraitinin pis olmasına görə kompensasiya təyin edirlər. | ***EST / Nikitin və başqaları (23226/16)***<br>*Yekun qərar 24/06/2019*<br>Yekun qətnamə CM/ResDH(2020)20 |
| Məhbuslar İnzibati Məhkəməyə səmərəli hüquqi müdafiə vasitəsi hüququ ilə bağlı şikayət (référé) verə və tez bir zamanda məhkəmə qərarını ala bilərlər. 2010-cu il tarixli İnzibati Ədliyyə Məcəlləsinə əsasən, maraqlı şəxs İnzibati Məhkəmənin hakimindən inzibati qərarın icrasının və ya onun bəzi nəticələrinin dayandırılmasını tələb edə bilər, bu şərtlə ki, həmin tələb fövqəladə halla əsaslandırılmış olsun və qərarın qanuniliyi ciddi şübhə doğursun. Hakim 48 saat ərzində qərar qəbul edir. İntizam sanksiyasına məruz qalan məhbuslar sanksiyanın ləğv edilməsi üçün (dayandırıcı qüvvəyə malik olmayan) ərizələri ilə paralel olaraq, sanksiyanın qüvvəsinin dayandırılması barədə qərar çıxarılması üçün hakimə vəsatət verə bilərlər. Penitensiar müəssisələrdə intizam sanksiyaları ilə bağlı bu hüquqi müdafiə vasitəsinin səmərəliliyi Dövlət Şurasının presedent hüququndakı dəyişikliklərdə öz əksini tapmışdır. | ***FRA / Payet (19606/08)***<br>*Yekun qərar 20/04/2011*<br>Yekun qətnamə CM/ResDH(2013)21 |
| 2013-cü ildə qəbul edilmiş fərmanla məhkumların hüquqlarının hər hansı pozuntusu ilə bağlı nəzarətçi hakimə şikayət etmək imkanı verən qabaqlayıcı hüquqi müdafiə vasitəsi tətbiq edilib. Bu hüquqi müdafiə vasitəsi həmçinin hakimin sıxlıq şəraitində saxlanmaya görə kompensasiya təyin etmək və şikayətçinin başqa yerə köçürülməsi barədə qərar vermək səlahiyyətini həyata keçirməsinə imkan verə bilər. 2014-cü il tarixli daha bir fərmanla kompensasiyaedici hüquqi müdafiə vasitəsi təsis edilib, belə ki, məhkum cəzasının qalan hissəsinin azaldılması üçün nəzarətçi hakimə müraciət edə bilər ki, nəticədə həddən artıq sıxlığın olduğu saxlanma şəraitində keçirilmiş hər 10 gün üçün cəzaçəkmə müddəti bir gün azaldıla bilər. Artıq azad edilmiş şəxslər həddən artıq sıxlığın olduğu saxlanma şəraitinə görə gündə səkkiz avro məbləğində maddi təzminat tələbi ilə mülki məhkəmələrə müraciət edə bilərlər. Maddi kompensasiya formasında hüquqi müdafiə vasitəsi həmçinin o şəxslərə də şamil edilir ki, onlar bu cür şəraitdə 15 gündən az vaxt keçirmişlər və ya onların cəzaçəkmə müddətinin qalan hissəsi azaldılmalı olan müddətdən azdır. | ***İTA / Torregiani və başqaları (43517/09)***<br>*Yekun pilot qərar 27/05/2013*<br>Yekun qətnamə CM/ResDH(2016)28 |
| 2004-cü il tarixli İnzibati Prosessual Qanunda həbsə alınmış şəxslərin saxlanma şəraiti ilə bağlı inzibati məhkəmələrə şikayətlərinin tənzimlənməsi və kompensasiya verilməsi üçün əlavə hüquqi müdafiə vasitəsi nəzərdə tutulmuşdur. | ***LAT / Savics (17892/03)***<br>*Yekun qərar 27/02/2013*<br>Yekun qətnamə CM/ResDH(2016)122 |
| Konkret olaraq, əgər müvafiq vəsatət ilkin mülahizələrə görə əsaslıdırsa və şikayətçiyə xeyli maddi və ya mənəvi zərər dəyə bilərsə, inzibati məhkəmələr məhbusun vəsatəti üzrə bir ay ərzində qərar | ***LAT / Abele (60429/12)*** |

çıxara və müvəqqəti tədbirlər təyin edə bilərlər. Ölkədaxili presedent hüququndan nümunələr xüsusən aşağıdakılara aiddir: şəxsi məkanın olmaması, hepatit C ilə bağlı lazımi müalicə almaq üçün müraciət, qohumlarla görüşmək hüququ və məhbusların zorakılığından müdafiə.

*Yekun qərar 29/01/2018*

**Yekun qətnamə CM/ResDH(2018)433**

---

Ali Məhkəmənin 2007 və 2010-cu il tarixli qərarlarından sonra məhbuslar Mülki Məcəllənin müvafiq müddəalarına uyğun olaraq sıxlıq şəraitində saxlanma müddətlərinə görə kompensasiya tələbi irəli sürə bilərlər. 2012-ci ildə Ali Məhkəmə qərara aldı ki, hər bir məhkum üçün məskunlaşma sahəsinin normasını tənzimləyən qanunvericilik standartının pozulması məhkumun şəxsi hüquqlarının pozulması ilə nəticələnə bilər. Həmçinin ümumi saxlanma şəraiti ilə bağlı şikayətlər penitensiar müəssisələrin yuxarı səviyyəli idarəsinə və ya Ədliyyə Nazirliyinin tabeliyində olan penitensiar işlər üzrə hakimə verilə bilər. Penitensiar işlər üzrə hakim azadlıqdan məhrum edilmiş şəxs haqqında həbsxana müdiriyyətinin qanunsuz qərarını ləğv etmək səlahiyyətinə malikdir. Məhkumlar penitensiar işlər üzrə hakimin qərarından penitensiar işlər üzrə məhkəməyə şikayət edə bilərlər. Azadlıqdan məhrum etmə qanuna uyğun deyilsə, penitensiar işlər üzrə hakim məhbusun azadlığa buraxılması barədə qərar verə bilər. Nəhayət, Cinayət Cəzalarının İcrası Məcəlləsinə 2015-ci ildə edilmiş dəyişikliyə əsasən, penitensiar işlər üzrə məhkəməyə sahəsi az olan kameraya salınma və ya sıxlığın çox olduğu iddia edilən kamerada yerləşdirilmə ilə bağlı həbsxana müdiriyyətinin qərarından şikayətlər verilə bilər.

***POL / Orchowski (17885/04)***

*Yekun qərar 22/10/2010*

**Yekun qətnamə CM/ResDH(2016)254**

---

2017-ci ildə “Cəzaların icrasına dair Qaydalar”a edilmiş dəyişikliklərdə nəzərdə tutulub ki, həm qabaqlayıcı həbsə məruz qalan məhbuslar, həm də məhkum edilmiş məhbuslar saxlanma şəraitinin qeyri-adekvat olması ilə bağlı rayon məhkəməsinin sədrinə və ya Penitensiar Xidmətin Baş direktoruna şikayət vermək hüququna malikdirlər. Rayon məhkəməsinin sədrinin qəbul etdiyi qərar həbsxana müdiriyyəti üçün məcburidir.

Qeyri-adekvat saxlanma şəraitinə görə kompensasiyaedici hüquqi müdafiə vasitəsi qabaqlayıcı həbsə məruz qalan məhbuslar və məhkum edilmiş məhbuslar tərəfindən istifadə edilə bilər, həmçinin azadlığa buraxılmış məhbuslar mülki qanunvericiliyin və “Dəymiş mənəvi zərərlə bağlı öhdəliklər məcəlləsi”nin müddəaları əsasında ondan istifadə edə bilərlər. 2018-ci ildə hökumət bu cür iddiaların həlli üçün meyarlar qəbul edib və ölkədaxili məhkəmələrdə baxılan bütün işlərin həlli üzrə təkliflər prokurorluq tərəfindən təqdim edilib.

***SVN / Jovic və Mandic (5774/10+)***

*Yekun qərar 20/01/2012*

**Yekun qərarlar**
**CM/ResDH(2018)101**
**CM/ResDH(2020)102**

---

Qabaqlayıcı hüquqi müdafiə vasitəsi 2015-ci il tarixli İnzibati Prosessual Məcəllədə (İPM) nəzərdə tutulmuşdur. 2018-ci ildə Ali Məhkəmənin Plenumu pis həbs şəraiti ilə bağlı beynəlxalq standartları və Avropa Məhkəməsinin presedent hüququnu nəzərə alaraq, hüquqi müdafiə vasitəsindən istifadə məsələsinə aydınlıq gətirən qərar qəbul edərək aşağı məhkəmələrin diqqətinə çatdırıb.

Bundan əlavə, məhkəmələr İPM-də nəzərdə tutulan prosedur əsasında pis saxlama şəraitinə görə kompensasiya təyin edə bilərlər (bir şərtlə ki, bu cür iddialar müvafiq həbs müddətinin bitməsindən sonra üç ay ərzində təqdim edilsin). 2018-ci ildə daxili məhkəmələr saxlanma şəraitinin pis olması nəticəsində dəymiş maddi və mənəvi zərərin ödənilməsi ilə bağlı 4.000 iddiaya baxıb, onlardan 2.800-ü (təqribən 70%) təmin edilib.

Məhkəməyə müraciət formasında hüquqi müdafiə vasitəsinin əlçatanlığı onunla təmin edilir ki, məhkəmə rüsumlarının məbləği müəyyən edilərkən iddiaçının maddi vəziyyəti nəzərə alınır və onlar məhkəmənin qərarı ilə hissə-hissə, möhlət verilməklə ödənilə və ya müvafiq şəxs onları ödəməkdən azad edilə bilər.

***RUS / Kalashnikov (47095/99)***

*Yekun qərar 15/10/2002*

***RUS / Ananyev və başqaları (42525/07)***

*Yekun pilot qərar 10/04/2012*

**Fəaliyyət planı**

İcra vəziyyəti: icra başa çatmayıb

---

# İŞLƏRİN SİYAHISI

*ALB / Dybeku və Grori* ............ 9, 16
*ERM / Mushegh Saghatemyan* ............ 16
*BEL / Bamouhammad* ............ 16
*BEL / Clasens* ............ 6
*BEL / L.B* ............ 9
*BEL / Vasilescu* ............ 16
*BEL / W.D* ............ 9
*BOL / Kehayov* ............ 3, 7, 17
*BVH / Rodic və başqaları (22893/05)* ............ 15
*XOR / Cenbauer* ............ 3, 10, 18
*KİP / Danilczuk* ............ 17
*KİP / Onoufriou* ............ 7, 17
*EST / Nikitin və başqaları* ............ 18
*EST / Tunis* ............ 3
*FRA / Fakailo dit Safoka və başqaları* ............ 14
*FRA / Frérot* ............ 7
*FRA / Helhal* ............ 10
*FRA / Khider* ............ 7
*FRA / Payet* ............ 18
*FRA / Vincent* ............ 10
*GÜR / Ghavtadze* ............ 10
*GÜR / Jashi* ............ 10
*YUN / Dougoz* ............ 14
*YUN / Martzaklis və başqaları* ............ 11
*YUN / Nisiotis* ............ 3
*YUN / Siasios və başqaları* ............ 3
*İTA / Cirillo* ............ 11
*İTA / Scoppola* ............ 11
*İTA / Torregiani və başqaları* ............ 4, 18
*LİT / Kasperovicius* ............ 14
*LİT / Urbonavicius* ............ 11
*LAT / Abele* ............ 4, 18
*LAT / Bazjaks* ............ 6
*LAT / Holodenko* ............ 11
*LAT / Kadikis (№2)* ............ 4, 12
*LAT / Melnitis* ............ 6
*LAT / Savics* ............ 7, 18
*MOL / Ciorap* ............ 4
*MOL / I.D* ............ 11
*MON / Bulatovic* ............ 4
*NİD / Lorse və başqaları* ............ 8
*POL / Horych* ............ 8
*POL / Orchowski* ............ 5, 6, 11, 19
*RUM / Bragadireanu* ............ 5
*RUM / Ciupercescu (№1)* ............ 8
*RUM / Dragan* ............ 12
*RUM / Rezmives və başqaları* ............ 5
*RUM / V.D* ............ 12
*RUS / Ananyev və başqaları* ............ 6, 19
*RUS / Guliyev* ............ 8
*RUS / Kalashnikov* ............ 5, 12, 17, 19
*RUS / Tomov və başqaları* ............ 8
*SER / Gjini* ............ 15
*SVN / Jovic və Mandic* ............ 5, 19
*TÜR / Güvec* ............ 13
*BK / Price* ............ 14
*UKR / Aliev* ............ 6
*UKR / Okhrimenko* ............ 15
*UKR / Yakovenko* ............ 17